# Ekoloji turizmin insanların maariflənməsində rolu

Ekoloji turizm dedikdə, son dövrlərdə dünya turizm sənayesinin çox yüksək sürətlə fəaliyyət göstərən sahələrindən biri başa düşülür. Ekoloji turizm istirahət və təbiətdən zövq almaq üçün istifadənin yeni forması olmaqla bərabər, bioloji müxtəlifliyin mühafizəsini təbliğ etməklə, təbii-rekreasiya ehtiyatlarından ən düşünülmüş formada istifadə etməyi, həmçinin də turizm fəaliyyətinin dayanıqlı 9 olmağını təmin etmək məqsədilə "qeyri-aşındırıcı" təbiətdən səmərəli istifadə rejiminin işlənib hazırlanmasını və həyata keçirilməsini tələb edir.

Respublikamıza Beynəlxalq Millətlər Təşkilatının tabeliliyindəki Ümumdünya Turizm Təşkilatı vasitəsilə ekoloji turizmin inkişaf edilməsi nöqteyi nəzərindən ən perspektivli və dayanıqlı yerlərdən biri olaraq baxılır. Ölkə prezdentimiz İlham Əliyevin 2011-ci ili turizm ili elan olunduğu bildirildikdə bu məsələyə respublikamızda necə önəm verildiyinin ən bariz göstəricisidir.

Azərbaycanın təbii ekoloji turizm sahəsində gerçək potensial imkanlara malik olması danılmaz bir faktdır. Çox maraqlı və potensial ekoturizm ehtiyatları ilə zəngin dövlət olaraq onun ərazisinin yarıdan çoxunu qum landşaftlan (yarımsəhralar və dağlıq çöllər həmçinin dağətəyi) əhatə etməkdədir

Azərbaycan Respublikasında biomüxtəlifliyin qorunması sahəsində bir çox iş görülmüşdür: xüsusi qanunlar qəbul edilmiş, Qırmızı Kitab dərc edilmiş, müxtəlif xarakterli landşaftlarda qoruqlar təşkil edilmiş, populyar kitabça və kitablar nəşr edilmişdir. Ən qiymətli təbiətin mühafizəsi məqsədilə qoruqlar şəbəkəsi yaradılmışdır. Hazırda Respublikada 15 Dövlət qoruğu və Dövlət yasaqlığı mövcuddur (3). Xüsusi mühafizə olunan ərazilərin ümumi sahəsi 600.000 hektara yaxındır. Ölkənin davamlı inkişafının əsasını təşkil edən və qlobal biomüxtəlifliyin tərkib hissəsi olan Respublikanın biomüxtəlifliyini qorumaq məqsədilə, habelə "Bioloji müxtəliflik haqqında konvensiya"nın 6-cı maddəsinə müvafiq olaraq Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına dair Milli Strategiya və Fəaliyyət Planı hazırlanmışdır